**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN İQTİSADİ RAYONUNUN KƏND TƏSƏRRÜFATI STRUKTURUNDA BAŞ VERƏN MÜASİR REGİONAL DƏYİŞİKLİKLƏR VƏ ONLARIN İDARƏ OLUNMASI

| | |
|---|---|
| İxtisas: | **5401.01 – İqtisadi coğrafiya** |
| Elm sahəsi: | **Coğrafiya** |
| İddiaçı: | **Həsənov İsmət Qaçay oğlu** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2025**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** aqrar elmlər üzrə elmlər doktoru, professor
**Əlövsət Gülüş oğlu Quliyev**

**Rəsmi opponentlər:** coğrafiya elmləri doktoru, dosent
**Məlikməmməd Xanoğlan oğlu Məmmədov**

coğrafiya üzrə fəlsəfə doktoru
**Vüqar Səttar oğlu Dərgahov**

coğrafiya üzrə fəlsəfə doktoru
**Solmaz İsaq qızı Rzayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

coğrafiya elmlər doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi:

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın sədri:

coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş. Ministry of Science and Education of the Republic of Azerbaijan Baku State University ELMİ KATİB SCIENTIFIC SECRETARY İmzanı təsdiq edirəm: "05" 05 2025

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Kənd təsərrüfatında struktur dəyişikliklərinin həyata keçirilməsi, təbii-coğrafi şəraitin imkan verdiyi bitkilərin becərilməsinin təşkili, daha məhsuldar və çox gəlir gətirən sahələrin ixtisaslaşmasına keçid, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi müasir şəraitdə xüsusi aktuallıq kəsb edir. Son illərdə ölkənin, o cümlədən də Naxçıvan iqtisadi rayonunun kənd təsərrüfatında baş verən dəyişikliklər, müxtəlif təşkilati-hüquqi formalara malik çoxstrukturlu subyektlərin formalaşması, məhsulların çeşidinin və istehsal strukturunun şaxələnməsi, regional inkişafda tarazlığın təmin edilməsi istiqamətindəki tədbirlər məhz dünya iqtisadi sisteminin tələbləri baxımından reallaşmışdır.

Kənd təsərrüfatının strukturunda struktur dəyişikliklərinin idarə edilməsi, aqrar-sənaye kompleksinə daxil olan yüngül və yeyinti sənayesi obyektlərinin fəaliyyətinin təmin olunması da aqrar siyasətin qarşısında duran vəzifələrin mürəkkəbliyini göstərir. Bu mənada Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatında regional dəyişikliklər spesifik yanaşma tələb edir. Bu baxımdan kənd təsərrüfatı istehsalı ilə məşğul olan subyektlərin fəaliyyətində struktur dəyişikliklərinin səmərəliliyinin qiymətləndirilməsi, regional siyasətin, rasional proporsiyaların formalaşdırılması və həyata keçirilməsi mexanizminə, onların davamlı olaraq təkmilləşdirilməsinə ehtiyac duyulur.

Səmərəli kənd təsərrüfatı sisteminin formalaşdırılması regionların inkişafını sürətləndirən iqtisadi amillərdən biridir. Belə ki, səmərəli iqtisadi münasibətlərin yeni formalarının tətbiqi, yeni struktur vahidlərinin yaradılması və idarəetmə modellərinin istifadəsi kənd təsərrüfatının bazar iqtisadi sisteminə transformasiyası ilə bilavasitə bağlıdır. Bu baxımdan inteqrasiya prosesləri regional aqrar-iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə struktur dəyişikliklərində, sahədaxili uyğunsuzluqların aradan qaldırılmasında, resursların yenidən bölgüsü imkanlarının genişləndirilməsində, istehsal resurslarından səmərəli istifadə edilməsində özünü biruzə verir.

Kənd təsərrüfatının ərazi təşkili və inkişaf etdirilməsi iqtisadi rayonda əhalinin ərzaq ehtiyaclarının ödənilməsinə, emal müəssisələrinin yaradılmasına, əhalinin gəlirlərinin formalaşmasında bu sahənin rolunun artırılmasına, məşğulluğun yüksəldilməsinə və s. xidmət etməlidir. Həmçinin kənd yaşayış məntəqələrinin iqtisadi bazası funksiyasını yerinə yetirməlidir. Hazırda regional kənd təsərrüfatı sisteminin formalaşdırılması istqiamətində dövlət tərəfindən bir sıra mühüm addımlar atılmış, qanunvericilik sənədləri və dövlət proqramları qəbul edilmişdir.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "regionların iqtisadi və təbii potensialından səmərəli istifadə edilməsi, özəl investisiyaların cəlbinin təşviq olunması, yeni çağırışlara uyğun regional inkişaf mexanizmlərinin dövlət tərəfindən dəstəklənməsi" nəzərdə tutulur. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "regionlarda iqtisadi aktivliyin daha da artırılması, regionların sürətli inkişafı" kimi mühüm məsələlər öz əksini tapmışdır. 2014-cü ildə "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam verilmişdir. Bu sərəncamda qeyd olunana "rayonlar üzrə aqrar siyasətin həyata keçirilməsinin təmin edilməsi, kənd təsərrüfatına dövlət dəstəyi tədbirlərinin təşkili, aqrar sahə ilə bağlı problemlərin həllində müvafiq yerli struktur bölmələri ilə səmərəli əməkdaşlığın qurulması"kənd təsərrüfatının regional inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Həmçinin müxtəlif dövrləri əhatə edən dövlət proqramları qeyd edilən istiqamətləri və onların reallaşdırlması üzrə prioritetləri təsbit edir.

Bunlar göstərir ki, yerli və xarici qabaqcıl təcrübələrin təhlilindən, elmi əsaslandırılmış metodlardan, təşkilati strukturlardan, informasiya və kadr təminatından istifadə etməklə Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatında regional struktur dəyişikliklərinin təkmilləşdirilməsi zəruridir. Onu da qeyd edək ki, bu sahədə struktur dəyişiklikləri kənd təsərrüfatının idarəedilməsi mexanizminin səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsi yolu ilə həyata keçirilməlidir.

Bu gün regionlarda kənd təsərrüfatının inkişafının əsas problemləri kiçik pay torpaqlarının mövcud olduğu şəraitdə istehlak xarakterli təsərrüfatların üstünlük təşkil etməsi, yeni məhsuldar bitki növləri və heyvandarlığın inkişaf etdirilməsində olan çətinliklər, maddi-texniki bazanın zəif olması, yeni və iri ixtisaslaşmış təsərrüfat subyektlərinin yaradılmasında olan çətinliklər və onların sayının az olması, yerlərdə tədarük məntəqələrinin olmaması və s.dir. Göstərilən problemlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarının araşdırılması vacib məsələ kimi qarşıda durur. Onlar kənd təsərrüfatında regional struktur dəyişikliklərinin idarə edilməsi və problemlərin həlli yollarının müəyyənləşdirilməsi ilə bağlıdır və tədqiqat mövzusunun aktuallığını təsdiq edir.

Kənd təsərrüfatının strukturunda baş verən regional dəyişikliklər və onların səmərəli istiqamətlərinin müəyyən edilməsi məsələləri daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Respublikanın bir çox alim və tədqiqiatçıları bu istiqamətdə geniş araşdırmalar aparmışlar. Onlardan A.A.Nadirov [2000], A.A.Qurbanzadə [2017], N.Ə.Paşayev [2010], Z.N.Eminov [2008], Ə.X.Nuriyev [2017], B.T.Nəzirova [1975], E.A.Quliyev [2020], İ.H.İbrahimov [2016], V.H. Abbasov [2017], N.Ə.Cavadov [2009], Ç.N.İsmayılov [2015] və d. göstərmək olar. Struktur dəyişikliklərinin regional problemləri və onların idarə edilməsi məsələləri xarici ölkələrin mütəxəssislərinin də geniş araşdırma obyektidir. Bu baxımdan İ.Thunen [1926], A.Q.Koval [2018], T.V.Abalkina [2014], T.V.Voronina [2010], Y.E.Alekseyçeva [2016], N.A.Borxunov [2017], O.S.Belokrılova [2016], O.V. Spasskaya [2003], O.Y. Krasilnikov [1999] və başqalarının tədqiqatlarını qeyd etmək olar.

Qeyd etmək lazımdır ki, həm yerli, həm də xarici ölkələrin mütəxəssisləri tərəfindən əsasən təsərrüfatda baş verən regional dəyişikliklər və onların idarə olunması məsələlərinə yer verilmişdir. Kənd təsərrüfatının strukturunda baş verən regional dəyişikliklər kontekstində onların idarə olunması mexanizminə isə kifayət qədər toxunulmamışdır. Bu baxımdan tədqiqat işinin mövzusu əhatəliliyi və spesifikliyi ilə xarakterizə olunur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti Naxçıvan iqtisadi rayonu, predmeti isə iqtisadi rayonun kənd təsərrüfatının müasir ərazi təşkili və strukturunda baş verən regional dəyişikliklərin istiqamətləri və onların idarə olunmasının təkmilləşdirilməsi məsələləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Naxçıvan iqtisadi rayonunun kənd təsərrüfatı strukturunda baş verən müasir regional dəyişikliklərin əsas istiqamətlərini müəyyənləşdirmək, kənd təsərrüfatı strukturunun daha da təkmilləşdirilməsi, bu sahədə olan uyğunsuzluqları və gerilikləri aşkara çıxarmaq, bununla bağlı təklif və tövsiyələr hazırlamaqdır. Bu istiqamətdə aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- kənd təsərrüfatının ərazi təşkilini müəyyən edən tarixi, təbii-coğrafi və sosial-iqtisadi amillərin təsirinin müəyyən edilməsi;
- aqrar islahatların kənd təsərrüfatının ərazi təşkilində və strukturunda baş verən dəyişikliklərdə rolunun araşdırılması;
- kənd təsərrüfatı sahələrinin inkişaf dinamikasının təhlil edilməsi;
- kənd təsərrüfatının müasir sahə strukturunda baş verən dəyişikliklərin və regionda daxili fərqlərin ortaya çıxarılması;
- kənd təsərrüfatının səmərəli ərazi təşkili və təsərrüfat strukturunun təkmilləşdirilməsində Dövlət Proqramlarının rolunun müəyyənləşdirilməsi.

**Tədqiqat metodları:** Dissertasiya işində tarixilik, müqayisəli təhlil, riyazi statistik, sistem-struktur və kartoqrafik metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Naxçıvan iqtisadi rayonunda tarixi, təbii-coğrafi və sosial-iqtisadi amillərin kənd təsərrüfatının ərazi təşkilinə təsiri.
- Naxçıvan iqtisadi rayonunda aqrar islahatlar dövründə kənd təsərrüfatı sahələrinin inkişaf dinamikasının və ərazi təşkilində baş verən dəyişikliklərin təhlili.
- Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının ərazi təşkilində regional daxili fərqlərin tədqiqi;

- Naxçıvan iqtisadi rayonunda Dövlət Proqramlarının kənd təsərrüfatının səmərəli ərazi təşkili və təsərrüfat strukturunun təkmilləşdirilməsində rolu.

**Tədqiqatın elmi yeniliyi:** Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatı strukturunda baş verən müasir regional dəyişikliklər və onların idarə edilməsinin tədqiqi nəticəsində aşağıdakı elmi yeniliklər əldə edilmişdir.

- Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının strukturunun formalaşması və ərazi təşkilinin tədqiq edilməsi nəticəsində bu sahənin inkişafında tarixi, təbii-coğrafi və sosial-iqtisadi amillərin rolu müəyyən olunmuşdur.

-iqtisadi rayonda kənd təsərrüfatının ərazi təşkilində və inkişafında baş verən dəyişikliklərin təkmilləşdirilməsində aqrar islahatların təsiri araşdırılmışdır.

- inzibati rayonlarda kənd təsərrüfatı strukturunun müasir vəziyyəti təhlil olunmuş və aparıcı sahələri müəyyənləşdirilmişdir.

- Dövlət Proqramlarının iqtisadi rayonun kənd təsərrüfatının səmərəli ərazi təşkili və təsərrüfat strukturunun təkmilləşdirilməsində rolu araşdırılmış və bu sahədə olan problemlərin aradan qaldırılması üçün yeni tədbirlər planının hazırlanmasının zəruriliyi vurğulanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın nəzəri əhəmiyyəti kənd təsərrüfatındakı struktur dəyişikliklərin və onun idarə edilməsinin elmi-nəzəri əsaslandırılmasından ibarətdir. Tədqiqat işindən alınan mühüm nəticə və təkliflər Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının inkişafında və ərazi təşkilinin təkmilləşdirilməsində baza kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Dissertasiya işində əsaslandırılan müddəalar və nəticələr respublika və beynəlxalq səviyyəli elmi, elmi-praktiki konfranslarda məruzə edilmişdir. Onlara aşağıdakılar aiddir:

“İnsan və ətraf mühit münasibətləri” mövzusunda elmi konfrans (Bakı 2017), “UMTEB international congress on vocational & techinical sciences-X.” (Türkiyə 2020), “Naxçıvan Muxtar Respublikasında sanayenin divrsifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi.”beynəlxalq konfrans (Naxçıvan 2022), “Вопросы науки XXI века: актуальные исследования и потенциал

науки.beynəlxalq elmi praktiki konfrans (Москва, 2022 года), “Mədəniyyətlərin qovuşduğu məkan” adlı beynəlxalq konfrans (Naxçıvan 2020), “H.Ə.Əliyev və milli dövlətçilik məsələləri” mövzusunda respublika konfransı (Naxçıvan 2023), “Müasir İpək yolu və Naxçıvan -2” mövzusunda beynəlxalq konfrans (Naxçıvan 2022), “Ekoloji kimya və ətraf mühitin mühafizəsinin müasir problemləri” mövzusunda respublika elmi konfransı (Bakı 2024).

Dissertasiya işinin məzmununa dair 16 adda elmi məqalə və konfrans materialı çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin “Coğrafiya” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi və quruluşu**. Dissertasiya işinə giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı daxildir. Giriş- 6 səhifə, I fəsil-20 səhifə, II fəsil-23 səhifə, III fəsil-49 səhifə, IV fəsil-27 səhifə, nəticə-3 sahifə, 144 istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işində 3 xəritə, 5 diaqram, 26 cədvəl verilmişdir. Dissertasiya işi 142 kompüter səhifəsi həcmindədir. Dissertasiya işi cədvəlsiz, şəkilsiz və ədəbiyyat siyahısız 202516 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, müdafiyəyə çixarılan əsas müddəallar, metodlar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, tətbiqi və s. öz əksini tapmışdır.

Dissertasiya işinin birinci fəsli **“Regionda kənd təsərrüfatının öyrənilməsinin nəzəri-metodoloji əsasları və təbii bazası”** adlanır. Bu fəsildə kənd təsərrüfatının öyrənilməsinin nəzəri-metodoloji əsasları, kənd təsərrüfatının tarixi-coğrafi inkişaf xüsusiyyətləri, kənd təsərrüfatının formalaşmasında təbii-coğrafi mühitin rolu şərh edilmişdir. Burada ilk olaraq kənd təsərrüfatının öyrənilməsinin elmi-nəzəri əhəmiyyəti təhlil edilmişdir. Kənd təsərrüfatı insanların qida və xammal istehsal etmək üçün təbii ehtiyatlardan istifadə etdiyi iqtisadi fəaliyyət sahəsidir. O bitkiçilik və heyvandarlıq sahələrini özündə birləşdirir və bir çox elmlər tərəfindən müxtəlif aspektlərdə öyrənilir.

Naxçıvan iqtisadi rayonunda XX əsrin əvvəllərində təsərrüfatın inkişafı və ərazi təşkili haqqında ətraflı elmi təhlillər M.Baharlının "Azərbaycan" (1921) kitabında verilmişdir. Kitabda Azərbaycanın, onun mühüm tərkib hissəsi olan Naxçıvanın təbii-coğrafi şəraitinin səciyyəsi verilir, relyefi, çayları, torpaqları haqqında təhlillər aparılır. M. Baharlı öz əsərində Naxçıvan iqtisadi rayonunun kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrini təhlil etmiş, onların regional fərqlərini statistik rəqəmlərlə göstərmişdir. Qeyd edir ki, "*1917-ci ildə Naxçıvanda 146,1 min desyatin torpaq sahəsi olmuşdur. Onların 138,2 min desyatinini əkin yerləri, 7813 desyatinini isə bağlar tuturdu. Həmin dövrdə burada arpa, buğda və çəltik əkilmişdir*"[1].

Naxçıvan iqtisadi rayonunun təsərrüfatı haqqında tədqiqatlar XX əsrin ikinci yarısından sonra geniş şəkildə tədqiq edilmişdir. Onlar arasında A.A.Nadirovun (1959) "Naxçıvan MSSR" monoqrafiyası təhlillərin əhatəli olmasına görə fərqlənir.

Kitabda Naxçıvanın iqtisadi coğrafiyası ətraflı şəkildə tədqiq olunur, təsərrüfatın inkişafının təbii-coğrafi bazası, təbii ehtiyatları, onlardan istifadə edilməsi imkanları öyrənilir. İqtisadi rayonda təsərrüfatın inkişafının tarixi-coğrafi xüsusiyyətlərinin təhlili aparılır. Göstərilir ki, daim mühüm kənd təsərrüfatı mərkəzlərindən biri olan regionda keyfiyyətli meyvə, üzüm, taxıl, pambıq əkilmişdir.

Azərbaycanda kənd təsərrüfatının öyrənilməsində R.C. Qəhrəmanov (1967) E.E. Qasımov (2011), L.M. Novruzova (2010), Ə.X. Nuriyev (2004), A.A. Qurbanzadə (2004), Z.N. Eminov (2008), N.Ə.Paşayev (2010), Ə.T. Zeynallı (2005), E.A. Bağırov (2015) və başqaları tədqiqat əsərləri yazmışlar.

Regionun qədim yaşayış məskənlərindən biri olması qeyd edilmişdir. İqtisadi rayonun ərazisində 6 min il əvvələ aid Kültəpə yaşayış yeri, Sədərək və Culfa inzibati rayonlarında b.e.ə. VIII-VII əsrlərə aid suvarma kanallarının qalıqları müəyyən edilmişdir. İlkin orta əsrlərdən başlayaraq baş verən müharibələr, işğallar ərazidə təsərrüfatın dağılmasına, məhsul istehsalının azalmasına gətirib çıxarmışdır. Lakin ərzaq məhsullarına tələbat və ticarətin aparılması təsərrüfatın davamlı olaraq bərpasını tələb edirdi. Regionda Sasanilərin hakimiyyəti (IV əsr)

---

[1] Baharlı M. Azərbaycan. Bakı, "Azərnəşr", 1993, 208 s.

və Ərəb istilası (VII əsr) dövründə baş verən müharibələr və dağıntılar təsərrüfat sahələrinin tənəzzülünə səbəb olurdu.

X-XII əsrlərdə Naxçıvan yerli feodal dövlətlərin tərkibində olmuşdur. Nisbətən dinc dövr kimi olan bir neçə yüzillik dövrdə təsərrüfatın əsasını kənd təsərrüfatı təşkil etmişdir.

Monqol işğalları (XIII əsr) dövründə Naxçıvanda şəhərlər, kəndlər viran qaldı, təsərrüfat sahələri yerlə yeksan oldu.

XVI əsrin əvvəlində Səfəvi dövlətinin yaranması kənd təsərrüfatının inkişafına yenidən böyük imkanlar açmışdır. Həmin dövrdə əkinçilik aparıcı sahə idi.

XVIII və XIX əsrin əvəllərində Rusiya və İran arasında aparılan müharibələr yenidən təsərrüfatın sıradan çıxmasına səbəb olmuşdur. 1828-ci ildən sonra Naxçıvanın kənd təsərrüfatında inkişaf və bərpa işlərinə başlanıldı. Bu vəziyyət XX əsrin əvvəllərinə kimi davam etdi. Regionda yaranan gərgin ictimai-siyasi vəziyyət, inqilablar və vətəndaş müharibəsi təsərrüfat sahələrinin dağılmasına, məhsul istehsalının tənəzzülünə gətirib çıxarmışdır. 1924-cü ilin fevralında Naxçıvan MSSR yaradılması nisbi iqtisadi-siyasi sabitliyə şərait yaratdı. Kənd təsərrüfatında məhsul istehsalının artımı 30-cu illərdə kollektivləşmə ilə başladı.

İkinci Dünya müharibəsindən sonra başlanan dinc quruculuq dövründə, xüsusilə də 50-60-cı illərdə iqtisadi rayonda kənd təsərrüfatı davamlı olaraq inkişaf etdirilmişdir. Eyni zamanda suvarma şəbəkəsi, çaylar üzərində su anbarları yaradılması əkin sahələrinin də genişləndirilməsinə imkan vermişdir.

Təbii-coğrafi şəraitin Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının inkişafı nöqteyi-nəzərdən öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. İqtisadi rayonun özünəməxsus coğrafiyası vardır. İqtisadi rayonun ərazisi dağlıq və düzənlik ərazilərdən ibarət olduğuna görə burada kənd təsərrüfatının müxtəlif sahələri inkişaf etmişdir. Dağlıq ərazilərdə əsasən heyvandarlıq, taxılçılıq və meyvəçilik düzənlikdə isə digər əkin sahələri geniş yayılmışdır. Şərur-Ordubad düzənliyi iqtisadi rayonun əsas məskunlaşma və kənd təsərrüfatı regionudur. İqtisadi rayonda aqroiqlim ehtiyatları da kənd təsərrüfatının inkişafı üçün çox əlverişlidir. Günəş radiyasiyası və günəşli saatların miqdarının çox

olması burada bitkiçilik məhsullarının keyfiyyətinə və onların növlərinə xüsusi təsir göstərir.

Ümumiyyətlə, kənd təsərrüfatının regional ərazi təşkilində və strukturunun formalaşmasında təbii-coğrafi şərait əsas amil kimi götürülür.

Dissertasiya işinin ikinci fəsli-**“Sosial-iqtisadi amillərin kənd təsərrüfatının inkişafında və idarəedilməsində rolu”** adlanır. Burada Naxçıvan iqtisadi rayonu üzrə kənd təsərrüfatının ərazi təşkilinin əsas prinsipləri və sosial-iqtisadi əsasları, müstəqilliyin ilk illərində kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər və kənd əhalisinin məşğulluq strukturunda kənd təsərrüfatının yeri araşdırılmışdır.

İlk olaraq, kənd təsərrüfatının ərazi təşkilinin əsas prinsipləri və sosial-iqtisadi əsasları təhlil edilmişdir. İqtisadi rayonda kənd təsərrüfatının ərazi təşkilini və inkişafını müəyyən edən əsas iqtisadi amillərə maliyyə və investisiyaların ayrılması, kənd təsərrüfatının əsas amilləri hesab olunan torpaqların keyfiyyəti, su ilə təminat və aqroiqlim ehtiyatlarının əlverişli olması, müasir avadanlıq və texnologiya ilə təminatı, təsərrüfatın digər sahələri ilə əlaqələr və s. daxildir.

Torpaqların əhaliyə paylanmasından sonra kənd təsərrüfatı məhsullarının becərilməsində və becərmənin region üzrə ərazi təşkilində ciddi dəyişikliklər olmuşdur. İlk növbədə əkin sahələri tamamilə azalmışdır ki, bu da onlardan toplanan məhsulların həcminin azalması ilə nəticələnmişdir.

Bu isə təkcə kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsində çətinliklər yaranması ilə nəticələnməmiş, həm də onların emalına əsaslanan müəssisələrin bağlanmasına, əmək ehtiyatlarının işsiz qalmasına gətirib çıxarmışdır. Kənd təsərrüfatının tənəzzülə uğramış yüksək gəlirli bitkiçilik sahələrinin inkişaf etdirilməsi üçün əkin sahələrinin artırılması, dövlətin maliyyə-texniki dəstəy göstərməsi, emal müəssisələrinin yaradılması, mövcud emal müəssisələrinin yenidən qurulması vacibdir.

Fəslin ikinci bölməsində Müstəqilliyin ilk illərində kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər araşdırılmışdır. Müəyyən olunmuşdur ki, bu dövrdə aqrar islahatlar nəticəsində uzun illər respublikanın kənd təsərrüfatı əkinlərinin strukturunda əhəmiyyətli yer tutan sahələrdə ciddi tənəzzül baş vermişdir. Bu proses bütün

regionlarda olduğu kimi Naxçıvan iqtisadi rayonunun da kənd təsərrüfatının inkişafına öz təsirini göstərmişdir. Belə ki, iqtisadi rayon da əkin sahələrinin azalması toplanan məhsulların həcminin azalmasına gətirib çıxarmışdır. Ciddi tənəzzül baş verən sahələrə üzümçülük, tütünçülük, şəkər çuğunduru və s. aiddir.

1994-cü ildə iqtisadi rayon üzrə ümumi əkinlərin sahəsi 40,0%-dən çox azalaraq 21,2 min hektara düşmüşdür. Ən çox azalmalar texniki bitkilərin əkin sahələrində olmuşdur.

XX əsrin 80-ci illərinin ortalarında qəbul edilmiş məlum qərarların nəticəsi olaraq qısa vaxtda iqtisadi rayonda üzümlüklər məhv edilməyə başlanmış, məhsul yığımı tam olaraq azalmışdır. 1990-cı ildə iqtisadi rayonda 10,4 min hektar sahədə üzüm əkilmişdir ki, bu da respublika üzrə üzüm əkinlərinin (181,4 min ha) 5,7%-ni təkil etmişdir.

Meyvə və giləmeyvə bağları müstəqilliyin ilk illərindən başlanan islahatlar prosesində ciddi dəyişikliyə uğramış, sahəsi əsaslı şəkildə azalmış, məhsul yığımı aşağı enmişdir. Onların yerində daxili istehlak və az vaxtda gəlir əldə etmək üçün sahələr inkişaf etdirilmişdir. Belə sahələrə kartof, bostan-tərəvəzin və dənli bitkilərin becərilməsi aiddir.

Müstəqillik ilk illərində aparılan torpaq islahatları prosesində strateji məhsulların əkin sahələri daha çox dənli və dənli paxlalı bitkilərlə əvəz olunmağa başladı. Buğda və taxıl məhsullarının becərilməsi az əməktutumlu olmaqla yanaşı, məhsulu da tez vaxtda toplanır. Ona görə kiçik pay torpaqlarında bu sahənin yayılması indiki şəraitdə əlverişli hesab olunur.

Bu fəslin son bölməsində "kənd əhalisinin məşğulluq strukturu"nun təhlili verilmişdir. Məlum olmuşdur ki, Naxçıvan iqtisadi rayonunda 465,7 min nəfər əhali məskunlaşmışdır. Onların da 300,7 min nəfəri (64,6%-i) kənd əhalisindən ibarətdir. Kənd əhalisinin 256,0 min nəfəri məşğul əhali sayılır ki, onların 50,2%-i kənd təsərrüfatında çalışanlardan ibarətdir. Culfa, Ordubad və Sədərək inzibati rayonlarında bu göstərici hətta 66-68% və daha yüksək qiymətlər alımışdır. Şahbuz rayonunda kənd təsərrüfatında məşğulluq nisbətən aşağıdır və 42,1% səviyyəsindədir[2].

---

[2] Azərbaycan Respublikası əhalisinin 2019-cu il siyahıyaalınmasının yekunları-Məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü. [28 cilddə] / - Bakı: DSK, c.14, 2022, s.

Dissertasiya işinin üçüncü fəsli **“Kənd təsərrüfatının regional ərazi təşkilinin müasir vəziyyəti”**nə həsr edilmişdir. Bu fəsildə Naxçıvan iqtisadi rayonunda bitkiçilik və heyvandarlığın sahə strukturunun müasir vəziyyəti və baş verən dəyişikliklər, kənd təsərrüfatının inzibati rayonlar üzrə yerləşməsi və region daxili fərqlər təhlil edilmişdir.

Bu fəslin ilk bölməsində Naxçıvan iqtisadi rayonunda bitkiçiliyin müasir sahə strukturu araşdırılmışdır. Respublikanın əkin sahələrinin 3,96%-i iqtisadi rayonun payına düşür. 2022-ci ildə iqtisadi rayonun kənd təsərrüfatında istehsal olunun məhsulun 65,3%-ni bitkiçilik vermişdir.

Respublikanın bütün regionlarında olduğu kimi burada da əkin sahələri üzrə dənli bitkilərin becərilməsi aparıcı yer tutur.

2022-ci ildə iqtisadi rayonda respublikanın dənli və dənli-paxlalı bitki əkinlərinin 3,63%-i, bu sahələrdən toplanan məhsulların isə 3,89%-i cəmlənmişdir (şəkil 1).

Dənli və dənli paxlalılardan iqtisadi rayonda buğda, arpa, qarğıdalı, paxlalı bitkilər, yem bitkiləri və s. əkilir. Onlar arasında 2022-ci ilə qədər əsas yeri buğda əkinləri (59,7%) tutsa da son illərdə yem bitkilərinin əkin sahələri (73,7%) üstünlük təşkil edir.




Şəkil 1. İqtisadi rayonda kənd təsərrüfatı bitkilərinin istehsalı, ton

Texniki bitkilərin becərilməsi hər bir regionda emal sənayesi obyektlərinin təşkilinə və fəaliyyətinə şərait yaradan sahələrdən biridir. İqtisadi rayonda keçid dövründə aparılan torpaq islahatları ilə əlaqədar bu qrupa aid olan bitkilərin tənəzzülə uğraması baş verdi. Sonrakı illərdə müəyyən tədbirlər görülsə də, hələ də texniki bitkilərin əkini və istehsalı sahəsində bir çox problemlər qalmaqda davam edir. İqtisadi rayonun əkin sahələrinin 0,4%-i texniki bitkilərin payına düşür.

Bostan-tərəvəz məhsullarının becərilməsi üçün iqtisadi rayonda əlverişli təbii-iqlim şəraiti, istehlakçı potensialı və emal müəssisələri mövcuddur. Uzun illər ərzində bu imkanlardan geniş istifadə edilmişdir. İqtisadi rayonda bostan və tərəvəz bitkilərinin əkin sahəsi ümumi əkinlərin 17,3%-ni təşkil edir ki, onlardan da 2022-ci ildə 178,4 min ton məhsul toplanmışdır. Lakin son 2 ildə bu sahə üzrə əkin sahələri və məhsul istehsalı 3 dəfədən çox azalmışdır (şəkil 1).

Meyvəçilik iqtisadi rayonda tarixən inkişaf etmiş təsərrüfat sahələrindən biri olmuşdur. Keçid dövründən sonra burada meyvə və giləmeyvə bağlarının sahəsi davamlı olaraq genişləndirilmişdir. Buna uyğun olaraq toplanan məhsulların həcmi də artmışdır. Meyvə və giləmeyvə bağları iqtisadi rayonun ümumi əkinlərinin 3,4%-ni və ya 5573,8 hektarını təşkil edir ki, onların da 94%-i bar verən yaşdadır.

2023-cü ildə əksər meyvəçilik sahələri üzrə bağların sahəsi artmış olsa da, onlardan yığılan məhsulların həcmi xeyli dərəcədə azalmışdır. Toplanan meyvə və giləmeyvə məhsullarının miqdarı 31,5 min ton olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 41,4% azalma deməkdir.

Üçüncü fəslin ikinci bölməsində iqtisadi rayonda kənd təsərrüfatının inzibati rayonlar üzrə ixtisaslaşmasından bəhs olunur. Burada inzibati rayonların müxtəlif təbii-coğrafi şəraitdə yerləşməsi onların kənd təsərrüfatı məhsullarına görə ixtisaslaşmasında önəmli rol oynayır.

Kənd təsərrüfatı bitkilərinin becərilməsində sabit dövr kimi qəbul edilən 2022-ci ildə iqtisadi rayonda 64,3 min ha əkin sahələri olmuşdur ki, onun da 25,2%-i Şərur və Babək rayonlarının, 15,8%-i Kəngərli rayonunun, 12,8%-i isə Culfa rayonunun payına düşür.

Şərur Naxçıvan iqtisadi rayonunun əsas əkinçilik rayonu olmaqla, ümumi əkin sahələrinin 25,3%-ni, bitkiçilik məhsullarının isə 30,1%-ni özündə toplamışdır. İnzibati rayonda əkin sahələrinin 42%-i yem bitkilərinin, 20,1%-i buğdanın, 12,6%-i tərəvəzin və s. payına düşür[3]. Həmçinin inzibati rayonun ərazisində arpa, qarğıdalı, paxlalılar, günəbaxan, bostan bitkiləri, üzüm və s. becərilir. İqtisadi rayon üzrə istehsal olunan kartof və tərəvəzin 44,4%-i, meyvə, giləmeyvə və üzümün 32,0% Şərur rayonunun payına düşür (şəkil 2).

İqtisadi rayonda əkin sahələrinə (25,2%) və onlardan toplanan məhsula (27,5%) görə ikinci yeri Babək rayonu tutur.

Burada olan əkin sahələrinin 70%-i dənli və dənli paxlalı bitkilərdən ibarətdir ki, onunda 64%-i buğda əkinlərinin payına düşür. Əkin sahələri üzrə ikinci yeri tərəvəz və bostan bitkiləri (17,8%) tutur. Həmçinin burada kartof, meyvə və giləmeyvə, üzüm, günəbaxan və az miqdarda tütün də əkilir. İnzibati rayonda istehsal olunan bitkiçilik məhsullarının 26,9%-i dənli və dənli paxlalı bitkilərin, 30,1%-i tərəvəz və bostan bitkilərinin və s.payına düşür.




Şəkil 2. Naxçıvan iqtisadi rayonunun əkinçilik xəritəsi

[3] Azərbaycanın kənd təsərrüfatı 2023. Bakı: DSK, 2024, 701 s.

Əkin sahələrinin 15,8% Kəngərli inzibati rayonunun ərazisində cəmlənmişdir. Bu sahələrdən iqtisadi rayon üzrə bitkiçilik məhsullarının 11,4%-i toplanır. Əkin sahələrinin 61,9%-də dənli və dənli paxlalı bitkilər, 28,8%-də isə yem bitkiləri əkilir. Digər əkin sahələri (kartof, tərəvəz, bostan bitkiləri, meyvə və giləmeyvə, üzüm və s.) isə az yer tutur.

Culfa inzibati rayonu ümumi əkin sahələrinin12,8%-ni, məhsul istehsalının isə 11,0%-ni özündə toplamışdır. Əkinlərin 70,1%-i dənli və dənli paxlalı bitkilərdən və 20,4%-i yem bitkilərindən ibarətdir. Qalan 9,5% əkinlər isə kartof, tərəvəz, bostan, üzüm, meyvə və giləmeyvə, günəbaxan bitkilərinin payına düşür.

İnzibati rayonda istehsal olunan bitkiçilik məhsullarının dörddə biri dənli və dənli paxlalı bitkilərdən, 18,6%-i kartof, tərəvəz və bostan bitkilərindən və s. ibarətdir.

Naxçıvan iqtisadi rayonunda əkin sahələrinin xüsusi çəkisinə görə (7,0%) beşinci yeri Sədərək rayonu tutur. Sədərək rayonunda da əkinlərin yarısını dənli və dənli paxlalı bitkilər, 28,5%-ni isə yem bitkiləri tutur. Digər bitkilərdən tərəvəz, meyvə, giləmeyvə, üzüm və s. əkilir. İqtisadi rayon üzrə bitki məhsullarının istehsalının 5,7%-i Sədərək rayonunun payına düşür ki, onun da təqribən üçdə biri dənli və dənli paxlalılardan ibarətdir.

Ordubad və Şahbuz rayonları iqtisadi rayonun dağlıq ərazilərində yerləşdiyinə görə əkin sahələri burada geniş əraziləri əhatə edə bilmir. İqtisadi rayon üzrə ümumi əkin sahələrinin 6,1%-i Ordubad, 4,3%-i isə Şahbuz rayonunun ərazisində yerləşir. Hər iki rayonda əkin sahələrinin yarısını dənli və dənli paxlalı bitkilər tutur. Hər iki inzibati rayonda çoxillik əkmələr geniş yayılmışdır. Şahbuz rayonunun 33,3% əkin sahələrini, Ordubad rayonunun isə 22,2% əkin sahələrini meyvə və giləmeyvə bağları tutur. Bu bağlarda əsasən alma, ərik, qoz, armud, şaftalı, gilas və s. meyvələr yetişdirilir.

Ordubad rayonunda əkin sahələrindən yığılan məhsulun 28,4%-i kartofun, 18,9%-i tərəvəzin, 17,3%-i meyvə və giləmeyvənin və s. payına düşür.

Şahbuz rayonunda isə istehsal olunan bitkiçilik məhsulunun 32,3%-i meyvə və giləmeyvənin, 25,1%-i kartofun, 16,9%-i dənli və dənli paxlalıların, 7,7%-i isə tərəvəzin payına düşür.

Təbii -coğrafi şəraitə uyğun olaraq Babək, Kəngərli, Culfa, Şərur və Sədərək rayonlarında təsərrüfatın aparıcı sahəsi dənli və dənli paxlalılar, tərəvəz və bostan bitkiləridir. Şahbuz və Ordubad rayonlarında isə əsas yeri meyvə və giləmeyvə, kartof və tərəvəz tutur.

Üçüncü fəslin son bölməsində iqtisadi rayon üzrə heyvandarlıq sahələrinin ərazi təşkili araşdırılmışdır. Ölkənin hər yerində olduğu kimi Naxçıvan iqtisadi rayonunda da heyvandarlıq sahələri şəxsi təsərrüfatlara əsaslanır.

İqtisadi rayonda İBMQ-nın inzibati rayonlar arasında paylanmasında xeyli fərqlər müşahidə edilir. Onların sayı ilk növbədə inzibati ərazilərin sahəsindən, otlaq sahələri olmasından, yem bazası ilə təminatdan, kənd yaşayış məntəqələrinin sayından, onlarda heyvandarlıq sahələri ilə məşğul olan əhalinin sayından asılıdır. İBMQ-nın sayına görə Şərur (31,0%) və Şahbuz (19,3%) rayonları üstünlük təşkil edir. Sonrakı yerləri Culfa, Babək, Ordubad tutur. Ən az İBMQ Sədərək və Naxçıvan şəhər ə/d-də saxlanılır.

Qoyunçuluq heyvandarlığın aparıcı sahələrindən biridir. Bu sahə az əməktutumlu olmaqla yanaşı, qısa vaxtda gəlir gətirir və xərclərini ödəyir. Bununla yanaşı, sahənin inkişafı və qoyunların baş sayının artırılması üçün daimi və il boyu istifadə edilməsi mümkün olan otlaqlar tələb olunur. İqtisadi rayonda qoyunçuluğun inkişafı 2000-ci ildən başlayaraq davamlı artmışdır və 2022-ci ildə burada 747,7 min baş qoyun və keçi olmuşdur.

Qoyun və keçilərin sayının çoxluğuna görə Babək (20,1%), Şərur (18,2%), Şahbuz (17,1%) rayonları fərqlənir

İqtisadi rayonda quşçuluq da heyvandarlığın inkişaf etmiş sahələrindən sayılır. Əsasən əhalinin ətə və yumurtaya olan tələbatının ödənilməsinə xidmət edir. Bu sahədə az vaxtda ucuz başa gələn məhsul əldə etmək mümkün olur.

Kənd təsərrüfatının sabit inkişaf etdiyi dövr hesab edilən 2022-ci ildə burada 1497,7 min baş toyuq saxlanılmışdır. Müstəqilliyin son 20 ilində bu sahə davamlı olaraq inkişaf etdirilmiş, heyvanların saxlanılması üçün Broyler-Quşçuluq Kompleksləri yaradılması ilə saxlanılan heyvanların sayı artmış, əhalinin bu sahənin məhsulları ilə təminatı yaxşılaşmışdır.

Quşların baş sayının çoxluğuna görə Babək (22,8%), Şərur (17,4%), Culfa (15,2%), Ordubad (14,3%) fərqlənir.

Yuxarıda qeyd etdiyimiz hər üç sahədən əldə edilən heyvandarlıq məhsulları iqtisadi rayonun daxili tələbatını ödəməklə yanaşı ölkənin digər ərazilərinə də göndərilir. Əsas heyvandarlıq məhsullarına ət və süd aiddir. 2022-ci ildə 17,4 min ton ət, 90,0 min tona yaxın süd istehsal edilmişdir.

2000-2022-ci illərdə heyvandarlıq məhsullarının istehsalı davamlı olaraq artmışdır. Bu artım süd istehsalında 1,7 dəfə, ət istehsalında 3,3 dəfə, yun və yumurta istehsalında isə 2 dəfə müşahidə olunmuşdur (şəkil 3).




Şəkil 3. Heyvandarlıq məhsullarının istehsalı

Naxçıvan iqtisadi rayonu arıçılığın inkişafı üçün əlverişli şəraitə malikdir. Burada arı ailələrinin sayı və istehsal edilən əsas məhsul olan balın həcmi davamlı olaraq artır. Arıçılıq əsasən Şahbuz Ordubad və Culfa rayonlarında inkişaf etdirilmişdir. Bal istehsalına görə Şahbuz rayonu birinci yeri tutur (420 ton).

Dissertasiya işinin dördüncü fəsli **"Regionda kənd təsərrüfatının strukturunun və idarə olunmasının təkmilləşdirilməsi istiqamətləri"** adlanır. Bu fəsildə Kənd

təsərrüfatının səmərəli ərazi təşkilinin əsas istiqamətləri kənd təsərrüfatının ərazi təşkili və inkişafında Dövlət Proqramlarının rolu, həmçinin, kənd təsərrüfatının regional strukturunun təkmilləşdirilməsi məsələləri tədqiq edilmişdir.

Bu fəslin ilk bölməsində iqtisadi rayonda Kənd təsərrüfatının səmərəli ərazi təşkilinin əsas istiqamətlərindən bəhs olunmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatı əhalinin ərzaq məhsulları ilə təminatında aparıcı yer tutmaqla yanaşı, həm kəndlərin inkişafında mühüm rol oynayır, həm də bu məntəqələrin iqtisadi bazası kimi çıxış edir. İqtisadi rayonda kənd təsərrüfatının inkişafı üçün böyük potensial imkanlar mövcuddur. Onlara təbii-iqlim şəraiti, o cümlədən yüksək kəmiyyətlərə malik olan aqroiqlim ehtiyatları, məhsuldar torpaqlar, su ehtiyatları və s. aiddir.

Kənd təsərrüfatının gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi prosesində istehlakçıların sayı, kənd əhalisinin əmək vərdişləri, ixrac imkanları nəzərə alınmalıdır. Eyni zamanda ASK-ya daxil olan yüngül və yeyinti sənayesi obyektlərinin fəaliyyəti və yenilərinin yaradılması kənd təsərrüfatı məhsullarına tələbatı artırır. Ona görə bu qrup sənaye müəssisələrinin tələbatına uyğun strateji məhsulların istehsalının artırılması vacibdir.

İqtisadi rayonda əkinçilik yalnız suvarma şəraitində mümkün olduğu üçün kənd təsərrüfatının inkişafında məhsuldarlığın yüksəldilməsində suvarma sistemlərinin qurulması vacibdir. Su ehtiyatlarının məhdud olduğunu nəzərə alaraq suvarma suyunun səmərəli istifadə edilməsi və üsulların (damcılama və çiləmə) tətbiq edilməsi lazım gəlir. Həmçinin istehsal olunan məhsulların və xammalın saxlanması üçün tədarük məntəqələri, saxlama kameraları və anbarların yaradılması, maddi-texniki baza, mineral gübrələr, ziyanvericilərə qarşı mübarizə vasitələri ilə təmin edilməsi də lazımdır.

Müstəqilliyin ilk illərindən başlanan aqrar islahatlar prosesində kənd təsərrüfatının sahə strukturu ciddi şəkildə dəyişikliyə məruz qalmışdır. Nəticədə dənli və dənli paxlalı bitkilər əkin sahələrinin strukturunda aparıcı yer tutur. Bununla belə bu sahədə də müəyyən problemlər vardır ki, onlara becərmədə aqrotexniki qaydalara əməl

edilməsi, mineral gübrələrin ona uyğun qaydalarda istifadə edilməsi, maddi-texniki baza ilə təminat, məhsul toplanmasında itkilərin azaldılması, onların saxlanılması üçün infrastruktur yaradılması və s. daxildir.

Texniki bitkilərin becərilməsi sahəsində iqtisadi rayonda çox böyük problemlər vardır. Onlar arasında şəkər çuğundurunun becərilməsi sahəsində çətinliklər daha çoxdur. Şəkər çuğunduru əkinlərinin bərpası üçün ilk növbədə emal müəssisələrinin təşkili vacibdir. İqtisadi rayon onun becərilməsi üçün əlverişli təbii-iqlim şəraiti və torpaq ehtiyatlarına malikdir. Alınan məhsulların ixrac imkanları da böyükdür.

Bostan-tərəvəz bitkiləri və meyvəçilik kənd təsərrüfatının strukturunda əhəmiyyətli yer tutur. Onlar uzun illərdir ki, geniş ərazilərdə becərilmiş, daxili tələbat ilə yanaşı, ölkənin digər bölgələrinə də göndərilmişdir. Əlverişli təbii-iqlim şəraiti və əhalinin əmək vərdişləri bu sahələrin inkişafının böyük potensiala malik olduğunu göstərir.

Kənd təsərrüfatının aparıcı sahələrindən biri olan heyvandarlıq məhsullarına tələbat davamlı olaraq artır. Əhalinin sayının artması, emal müəssisələrinin yaradılması, mövcud müəssisələrin gücünün artması, bu məhsulların ixrac imkanlarının çoxalması onların istehsalının da artırılmasını tələb edir. Lakin bunun üçün görülən tədbirləri hələlik kifayət hesab etmək olmaz.

Heyvandarlığın inkişafının mühüm cəhətlərindən biri xüsusi təsərrüfatların yaradılması, onlarda baytarlıq xidmətinin təşkili, heyvanların arasında xəstəliklərin yayılmasının qarşısının alınması üçün tədbirlər görülməsidir.

Dördüncü fəslin ikinci bölməsində Dövlət Proqramlarının kənd təsərrüfatının ərazi təşkili və inkişafında rolu təhlil olunmuşdur.

Ölkədə aparılan iqtisadi islahatların qanunvericilik bazasının hazırlanması və həyata keçirilən tədbirlərin əlaqələndirilməsi üçün "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları" hazırlanmış və həyata keçirilmişdir. Onlar regionlarda istehsal və infrastruktur obyektlərinin fəaliyyətinin bərpa edilməsi, yenilərinin tikilməsi, kənd təsərrüfatı sahələrinin bərpası və əkin sahələrinin genişləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Birinci Dövlət Proqramı (2004-2008) çərçivəsində Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının inkişafı üçün mühüm işlər görülmüşdür. Onlara istixana kompleksləri qurulması, Vayxır su anbarlarının tikilməsi, "Naxçıvan Aqrolizinq" ASC-nin, "Gəmiqaya meyvə məhsulları kompleksi" MMC-nin yaradılması, heyvandarlıq, arıçılıq, taxılçılıq, kartofçuluq, bağçılıq, üzümçülük təsərrüfatlarının genişləndirilmiş, heyvandarlıq komplekslərinin və heyvandarlığın yem təminatı üçün yem istehsal sahəsi yaradılması və s. daxildir.

İkinci Dövlət Proqramı (2009-2013) dövründə meyvə bağları və üzümlüklərin sahəsi artırılmış, quşçuluq kompleksi inkişaf etdirilmiş, 5 inzibati rayonda 10 ədəd balıqçılıq təsərrüfatı qurulmuş, fermerlərin maşın texnika və avadanlıqlarla təmin edilməsi üçün mühüm addımlar atılmışdır.

2014-2018 və 2019-2023-cü illərdə qəbul edilmiş üçüncü və dördüncü Dövlət Proqramları dövründə aqrar sahədə sığorta işinin təşkili, yeni heyvandarlıq komplekslərinin yaradılması və s tədbirlər həyata keçirilmişdir.

İqtisadi rayonda "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuşdur. Burada digər məsələlərlə yanaşı kənd təsərrüfatının inkişafı istiqamətində atılacaq əsas addımlar müəyyən edilmişdir.

Dördüncü fəslin sonuncu bölməsində kənd təsərrüfatının regional strukturunun təkmilləşdirilməsi ilə bağlı məsələlər təhlil olunmuşdur. Kənd təsərrüfatının regional strukturunun səmərəli şəkildə formalaşdırılması problemlərinin həllində idarəetmənin xüsusi əhəmiyyəti vurğulanmışdır. Kənd təsərrüfatında problemlərin çoxluğu və mürəkkəbliyi ilə əlaqədar olaraq idarəetmənin funksiyalarında baş verən dəyişikliklər, xüsusiyyətlər, idarəetmə prinsipləri və s. araşdırılmışdır. Məlum olmuşdur ki, kənd təsərrüfatının idarə olunması dedikdə əkinçilik və heyvandarlıq sahələrində səmərəli və davamlı inkişafın təmin edilməsi nəzərdə tutulur. Həmçinin kənd təsərrüfatının regional idarə etmə modeli iqtisadi və inzibati rayonun kənd təsərrüfatı potensialını inkişaf

etdirdiyi, təbii ehtiyatlardan səmərəli istifadənin tənzimlənməsinə və bu sahədə olan uyğunsuzluqların həll olunmasına xidmət göstərdiyi qeyd olunur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

1. Naxçıvan iqtisadi rayonunda təsərrüfatrın ayrı-ayrı sahələrinin, o cümlədən kənd təsərrüfatının ərazi təşkili XX əsrin ikinci yarısından sonra geniş şəkildə tədqiq edilmişdir. Bu dövrdə kənd təsərrüfatına aid çoxsaylı elmi əsərlər nəşr edilmişdir. XXI əsrin əvvəlindən başlayaraq iqtisadi rayonun kənd təsərrüfatı müstəqil tədqiqat obyekti kimi öyrənilmişdir. Regionun kənd təsərrüfatında ixtisaslaşma aparılması, daha çox gəlir gətirən sahələrin inkişafına üstünlük verilməsi istiqamətində işlərin genişləndirilməsi üçün davamlı olaraq tədqiqatların aparılması tələb olunur.

2. İqtisadi rayonda kənd təsərrüfatının ərazi təşkili və strukturunun formalaşması üçün tarixi xüsusiyyətlər və təbii-coğrafi şərait araşdırılmışdır. Araşdırılmanın nəticəsində regionun qədim məskunlaşma ərazisi olmaqla yanaşı, kənd təsərrüfatının inkişafı üçün də əlverişli təbii-coğrafi şəraitə malık olması qeyd olunmuşdur. Belə ki, isti və quru iqlim şəraiti istiliksevən bitkilərin becərilməsinə, onların ixtisaslaşma sahəsi kimi formalaşmasına kömək edir. Lakin blokada şəraiti və torpaq islahatlarının aparılması təbii-coğrafi şəraitin imkan verdiyi mədəni bitkilərin yetişdirilməsinə tam olaraq şərait yaratmır. Tütünçülük, üzümçülük, meyvəçilik kimi sahələrin inkişaf etdirilməsi üçün iqtisadi rayonda potensial imkanlar kifayət qədər olsa da kiçik pay torpaqları onlardan səmərəli istifadə edilməsində çətinliklər yaradır. Su ehtiyatları ilə təminat məhdud olduğuna görə burada quraqlığa davamlı bitkiçilik sahələrinə, istixana təsərrüfatlarının yaradılmasına üstünlük verilməsi vacibdir [15].

3. Aqrar islahatların aparıldığı ilk dövrlərdə (keçid dövründə) bütün regionlarda olduğu kimi Naxçıvan iqtisadi rayonunda da, kənd təsərrüfatı sahələri tənəzülə uğradı. Xüsusilə də torpaqların özəlləşdirilməsi və kənd əhalisi arasında paylanması bu prosesi daha

da sürətləndirdi. Bu zaman heç bir maliyyə-texniki, kadr potensialı, texniki-təminat imkanları olmayan kəndli-fermer təsərrüfatları təşkil olundu. Kənd təsərrüfatının strateji əhəmiyyət kəsb edən üzüm, tütün, şəkər çuğunduru əkin sahələri, baramaçılıq tam olaraq tənəzzülə uğradı, meyvəçilik və kartofçuluqda xeyli geriləmələr baş verdi. Əvəzində daxili istehlak xarakterli yeni struktur formalaşdı ki, bu da daxili tələbatın tam olaraq ödənilməsinə yetmir.

4. Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının ərazi təşkilində kiçik pay torpaqlarına malik olan ailə kəndli-fermer təsərrüfatları mühüm yer tutur. İqtisadi rayonda kənd təsərrüfatı bitkilərinin becərilməsində təbii-coğrafi şəraitin təsiri nəzərə alınmaqla onların daha çox gəlir götürmək prinsipi üzrə becərilməsi tətbiq edilmir. Kənd təsərrüfatının ərazi təşkilində torpaqların paylanması, onların pərakəndə istifadə edilməsi, kənd təsərrüfatı bitkilərinin əkilməsində nizamlı prinsiplərin olmaması bu sahədə ciddi çətinliklərə səbəb olur, məhsulların əksəriyyəti daxili tələbatı ödəyir [1].

5. Kənd təsərrüfatı istehsalının mövcud vəziyyətinin araşdırılması struktur dəyişikliklərinin istiqamətini və səmərəliliyini, struktur dəyişikliklərinə səbəb olan amilləri müəyyən etməyə imkan verir. Kənd təsərrüfatının istehsal strukturunun mövcud vəziyyətinin təhlili göstərir ki, iqtisadi rayonda əsas aparıcı sahələrə dənli və dənli paxlalı bitkilər, bostan və tərəvəz bitkiləri, meyvə və giləmeyvə (xüsusilə də alma, ərik və üzüm), iri və xırda buynuzlu malqara, quşçuluq, arıçılıq və s. daxildir [3,6].

6. İqtisadi rayonun coğrafi-ərazi baxımdan asimmetriyası və regionların iqtisadi inkişaf səviyyəsinin diferensiallaşması, kənd təsərrüfatında istehsal strukturunun effektiv istiqamətlərinin formalaşmasında resursların qeyri-rasional bölüşdürülməsi, investisiya axınının məhdudlaşması, resurs potensialının qeyri-səmərəli istifadəsi, təkrar istehsalın nəticələrinin qeyri-effektivliyi kimi problemlər yaradır. Bu baxımdan regional aqrar strukturun daha səmərəli şəkildə formalaşdırılmasına dövlət dəstəyinin yeni istehsal istiqamətlərinin stimullaşdırılması, birbaşa maliyyə yardımlarının həyata keçirilməsi, ixracın təşviqi, qeyri-müəyyənliklərin və risklərin sığortalanması və s. vacib məsələlərdəndir.

7. Naxçıvan iqtisadi rayonunda kənd əhalisinin məşğulluq strukturunun təhlilindən aydın olur ki, inzibati rayonların əhalinin əksər hissəsi kənd əhalisindən ibarətdir. Kənd əhalisinin məşğulluğunda kənd təsərrüfatının aparıcı yer tutduğunu nəzərə alaraq bu sahənin genişləndirilməsinin və davamlı inkişafının təmin edilməsi vacib sayılır. Bütün regionlarda olduğu kimi Naxçıvan iqtisadi rayonunda da qəbul olunmuş Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi kənd təsərrüfatının davamlı inkişafında mühüm rol oynamışdır. Nəticə etibarı ilə regional idarəetmə fəaliyyətinin səmərəliliyi regional sosial-iqtisadi sistemin inkişafının səmərəliliyi ilə birbaşa bağlıdır. Odur ki, müasir idarəetmə sistemləri təkcə özünün deyil, həm də idarəetmə obyektinin-regional iqtisadiyyatın fəaliyyətinin optimallaşdırılması əsasında təkmilləşdirilməsidir [8].

## Dissertasiya işinin mövzusu ilə bağlı çap olunmuş elmi işlər


1. Həsənov, İ.Q. Müasir şəraitdə Naxçıvan Muxtar Respublikasının torpaq ehtiyatlarından səmərəli istifadə yolları // Akad. H.Ə.Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş "İnsan və ətraf mühit münasibətləri" mövzusunda elmi konfransın materialları, Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, - Bakı: Avropa, - 2017, XX cild. - s. 20-24 (Həmmüəllif: Həsənov Ə.M., Novruzova A.F.).
2. Həsənov, İ.Q. Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı və onun gələcək perspektivləri (2009-2019) // UMTEB international congress on vocational & techinical sciences-X. Nakhchivan University Azərbaijan. - Türkiyə: İksad publications, - 2020, İSBN- 978-625-7279-07-9. - s. 413-415.
3. Həsənov, İ.Q. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında əkinçiliyin ixtisaslaşmış sahələri və onun yerləşmə prinsipləri // Naxçıvan: "Mədəniyyətlərin qovuşduğu məkan" beynəlxalq konfransın materialları, - Naxçıvan: 2020, - s. 474-475.
4. Həsənov, İ.Q. Naxçıvan Muxtar Respublikasının yüksək dağlığının bitki formasiyaları // - Naxçıvan: Naxçıvan Universitetinin elmi əsərləri, 2021. №3 (22), - s. 193-197 (Həmmüəllif: Həsənov Ə.M., Əliyeva N.Z.).

5. Həsənov, İ.Q. Naxçıvan Muxtar Respublikasında suvarılan torpaqların ekologiyası // - Naxçıvan: Naxçıvan Universitetinin elmi əsərləri, - 2021. №4 (23), - s. 222-228 (Həmmüəllif: Hacıyev S.Ə.).

6. Həsənov, İ.Q. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında struktur dəyişiklikləri və onun regional aspektləri // "Naxçıvan Muxtar Respublikasında sanayenin diversifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi" mövzusunda beynəlxalq konfransın materialları, - Naxçıvan: 2022, - s.188-192.

7. Həsənov, İ.Q. Kənd təsərrüfatında transformasiya proseslərinin regional aspektləri // - Naxçıvan: Naxçıvan Universitetinin elmi əsərlər, - 2022. №3 (27), - s. 209-212.

8. Hasanov, I.G. Features of the geografical- regional economic development of agriculture // Questions of Science in the 21st Century: Current Research and the Potential of Science, - Moscow, June 30, - 2022, - pp. - 223-228.

9. Hasanov, I. G. Struktural changes in agriculture: problems of modernization and ways of solvation // - Bukhara: Scientific Reports of Bukhara State University, - 2022. 5(93), - s. 22-33.

10. Həsənov, İ.Q. Kənd təsərrüfatında struktur dəyişikliklərinin effektivliyi // - Naxçıvan: Naxçıvan Dövlət Universitetinin elmi əsərləri: Təbiət və Tibb elmləri seriyası, - 2023. № 3 (124), - s. 82-89.

11. Həsənov, İ.Q. Dövlətin aqrar siyasətinin regional aspektlərinin formalaşması xüsusiyyətləri // - Naxçıvan: Naxçıvan Universitetinin elmi əsərləri, - 2023. №2 (30), - s.176-183.

12. Həsənov, İ.Q. Heydər Əliyev Naxçıvan iqtisadi rayonunda aqrar islahatların banisi kimi // "Heydər Əliyev və milli dövlətçilik məsələləri" mövzusunda respublika konfransının materialları, - Naxçıvan: 2023, - s.148-151.

13. Həsənov, İ.Q. Zəngəzur dəhlizinin açılması və İpək yolunun bərpası aqrar sektorun inkişaf amili kimi // "Müasir İpək yolu və Naxçıvan - 2" mövzusunda beynəlxalq konfransın materialları, - Naxçıvan: 2022, - s. 773-778.

14. Hasanov, I.G. The main directions of sustainable development of the agricultural sector in the context of structural changes // - Odessa: Scientific journal "Young Scientist", - December 2023. №12 (124), - pp. 146-150.

15. Həsənov, İ.Q. Naxçıvan Muxtar Respublikasının Arazboyu maili düzənlik torpaqlarının münbitliyi və aqroekoloji problemləri // "Ekoloji kimya və ətraf mühitin mühafizəsinin müasir problemləri" mövzusunda respublika elmi konfransının materialları, - Bakı: 2024. - s.265-267.

16. Hasanov, I.G. Technological characteristics of some aborigen grape varieties specific to Nakhchivan region of Azerbaijan // International Journal of Innovative Research and Scientific Studies, - 2025. 8(2), - pp. 197-205 (Co-author: Najafov J.S, Ibrahimova L.P, Maharromova K.H, Salimov V.S).

Dissertasiyanın müdafiəsi 20 iyun 2025-ci il tarixində saat 11^00 - da Azərbaycan Respublikası Elm və Təhsil nazirliyi Bakı Dövlət Universiteti Coğrafiya fakültəsi nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, akademik Zahid Xəlilov 33. Bakı Dövlət Universiteti, əsas korpus.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:23.04.2025
Kağızın formatı: A5
Həcm: 38269 işarə
Tiraj: 100